**<u>İNSAN HÜQUQLARI SERİYASINDAN III</u>**

# İNSAN HÜQUQLARININ QORUNMASI VƏ TƏSVİQİ İLƏ MƏŞĞUL OLAN MİLLİ TƏSİSATLAR

# GİRİŞ

Birləşmiş Millətlər Təşkilatı özünün ən əsas məqsədlərindən birinin - insan hüquqlarının təşviq edilməsi və qorunmasının həyata keçirilməsinə yönəldilən müxtəlif fəaliyyət növləri ilə məşğuldur. İnsan hüquqları nomralarının müəyyənləşdirilməsi, onların yerinə yetirilməsinə nəzarət edilməsi, onlara riayət olunmasına yardım göstərilməsi və onların pozulması hallarının araşdırılması məsələlərinə dair müxtəlif beynəlxalq pakt və konvensiyalara uyğun olaraq yaradılmış mürəkkəb mexanizmin böyük əhəmiyyəti vardır. Bu fəaliyyətləri ilə yanaşı Birləşmiş Millətlər Təşkilatı, həmçinin insan hüquqlarının təşviq edilməsi və qorunması, malik olduqları hüquqlar haqqında ictimaiyyətə məlumat verilməsi sahəsində səylər göstərməkdə dövlətlərə praktik yardım göstərir.

Bu strukturlar və tədbirlər Birləşmiş Millətlər Təşkilatına insan Hüquqları və əsas azadlıqlar sahəsində aparıcı rol oynamağa imkan verir. Ancaq onu da etiraf etmək vacibdir ki, Birləşmiş Millətlər Təşkilatının ehtiyatları hədsiz-hüdudsuz deyildir və mahiyyət etibarı ilə o, xüsusilə də tək-tək hallar üçün birbaşa tədbirlər qəbul etməkdə məhdud imkanlara malikdir. Praktiki olaraq heç bir təşkilat hər birsituasiyanı öz nəzarəti altında saxlaya biləcəyinə ümid edə bilməz. O, həmçinin insan hüquqlarının pozulduğu güman edilən hər bir halı araşdıra və yaxud onun bütün qurbanlarına kömək edə bilməz.

Bu səbəblərə görə beynəlxalq sistem insan hüquqları sahəsində əhəmiyyətli dərəcədə Avropada, Afrikada və Amerikada fəaliyyət göstərən strukturlara bənzər regional strukturların himayəsinə arxalanır. Hökumətlər və müvafiq

beynəlxalq təşkilatlar da əlavə köməklik göstərirlər. Bu strukturların hər biri insan hüquqları üzrə ümumi mədəniyyətin inkişafında öz rolunu oynayır. Məsələn, qeyri-hökumət təşkilatları xarakterlərinin tələbinə uyğun olaraq, artıq öz fikirlərini ifadə etmək sərbəstliyinə, fəaliyyət çevikliyinə və bir yerdən başqa yerə hərəkət etmək sərbəstliyinə malikdirlər; bu da onlara hökumət təşkilatların və beynəlxalq təşkilatların həll edə bilmədikləri, hətta bəlkə də həll etməyə həvəs göstərmədikləri vəzifələri həll etməyə imkan verir. İnsan hüquqları sahəsindəki regional strukturlar beynəlxalq norma və mexanizmləri elə vasitələrlə möhkəmləndirmişlər ki, onların köməyi ilə müvafiq regionun konkret sosial, tarixi və siyasi şəraiti daxilində insan hüquqları problemlərini həll etmək mümkündür.

İnsan hüquqlarının həyata keçirilməsində milli hökumətlər xüsusilə böyük rol oynayırlar. İnsan hüquqları normaları ayrı-ayrı şəxslər arasındakı və ayrı-ayrı şəxslərlə dövlət arasındakı münasibətləri əhatə edir. Deməli, insan hüquqlarının qorunması və təşviqi hər şeydən əvvəl milli vəzifədir və hər bir dövlət onun həlli üçün məsuliyyət daşımalıdır. Hüquqların qorunması milli səviyyədə müvafiq qanunvericiliklərin, müstəqil məhkəmə sisteminin, fərdi təminatların və qorunma vasitələrinin qanunvericiliyə uyğun tərtibi və tətbiqinin köməyi ilə, həmçinin demokratik institutların yaradılması sayəsinə ən yaxşı şəkildə təmin edilə bilər. Bundan əlavə, məhz milli və yerli səviyyədə işlənib hazırlanan və həyata keçirilən, yerli mədəniyyətin və yerli ənənələrin şərtlərini nəzərə alan maarifçilik və informasiya xarakterli kampaniyalar ən səmərəli kampaniyalardır.

İnsan hüquqları sahəsində bu və ya digər müqaviləni təsdiq etdikdən sonra dövlət onun qaydalarını bilavasitə öz daxili qanunvericiliyinə daxil edir və ya o müqavilədə

öz üzərinə götürdüyü öhdəlikləri başqa bir yolla yerinə yetirəcəyinə söz verir. Buna görə də insan hüquqları sahəsində hamı tərəfindən qəbul edilmiş standartlar və normalar bu gün əksər ölkələrin daxili qanunvericiliklərində öz əksini tapmışdır. Ancaq əgər konkret hüquqların qorunması ilə bağlı qanunlar, onların səmərəli realizasiyasını təmin etmək üçün zəruri olan bütün hüquqi səlahiyyətlərin və institutların mövcudluğunu təmin etmirsə, onda həmin qanunların mövcudluğu heç də həmişə kifayət etmir.

İnsan hüquqlarının milli səviyyədə səmərəli həyata keçirilməsi ilə bağlı bu problem bütün dünyada, xüsusilə də son vaxtlar, heç də az olmayan marağa və fəaliyyətlərə səbəb olmuşdur. Bir çox ölkələrdə demokratik hakimiyyət formalarının meydana gəlməsi və ya onların yenidən yaranması insan hüquqlarının özülünü təşkil edən hüquqi və siyasi əsasların əhəmiyyətini qeyd edir.

Beləliklə, getdikcə belə bir fakt daha aydın üzə çıxır ki, insan hüquqlarının səmərəli şəkildə həyata keçirilməsi onların qorunması və təşviqi üçün milli infrastrukturların yaradılmasını tələb edir. Son illərdə bir çox ölkələrdə insan hüquqları üzrə rəsmi təsisatlar yaradılmışdır. Belə təsisatların vəzifələri hər bir ölkə üçün son dərəcə müxtəlif olsa da, onların hamısı ümumi məqsədlərə yönəldilmişdir və buna görə də onlar insan hüquqlarının qorunması və təşviqi ilə məşğul olan milli təsisatlar adlanır.

Aşağıdakı səhifələr bütün mövcud milli təsisatlar kompleksini müfəssəl təsvir etmir. Hazırda İnsan hüquqları Mərkəzi bu məsələ ilə əlaqədar olaraq belə təşkilatların yaradılmasında və ya onların möhkəmləndirilməsində maraqlı olan hökumətlərə praktik və ətraflı tövsiyyələri əks etdirən ayrıca bir vəsait hazırlayır. "Faktların şərhi"nin bu buraxılışında milli təsisatlara daha ümumi yanaşma üsulu

əsas götürülür: burda onların yaradılış tarixçəsindən söhbət açılır və həm Birləşmiş Millətlər Təşkilatı sistemi çərçivəsində, həm də ondan kənarda insan hüquqlarının qorunması və təşviqi sahəsində göstərilən səylərin ümumi təkamülü şəraitində meydana gəlmələrinin aydınlaşdırılmasına cəhd edilir.

## İNSAN HÜQUQLARININ QORUNMASI VƏ TƏŞVİQİ İLƏ MƏŞĞUL OLAN BMT TƏSİSATLARI VƏ MİLLİ TƏSİSATLAR

Milli təsisatlara hamılıqla maraq nisbətən yeni hadisə olsada, Birləşmiş Millətlər Təşklatı belə təsisatlara ilk dəfə 1946-cı ildə maraq göstərmişdir; Sosial və İqtisadi Şura o zaman bu məsələyə birinci olaraq müraciət etmişdi. Şura üzv ölkələrə İnsan hüquqları Komissiyasının öz fəaliyyətini inkişaf etdirərkən onlarla əməkdaşlıq edə bilməsi üçün öz ölkələrinin hüdudları daxilində insan hüquqları üzrə informasiya qruplarının və ya yerli komitələrin təsis edilməsinin faydalı ola biləcəyi barədə məsələni nəzərdən keçirməyi təklif etmişdi.

İnsan hüquqlarının qorunması və təşviqində milli təsisatların unikal rol oynaya biləcəyinin etiraf edildiyi 1960-cı il qətnaməsində İqtisadi və Sosial Şura hökumətlərə belə orqanların yaradılmasını və onların gələcək fəaliyyətlərini təşviq etməyi, habelə bu məsələ ilə bağlı öz fikirləri barədə Baş katibə məlumat verməyi və ona informasiyalar göndərməyi təklif etmişdi. Bu proses hal-hazırda da inkişaf etdirilir və alınan informasiyalar barədə məruzələri Baş Katib mütəmadi olaraq İnsan Hüquqları Komissiyasına, Baş Assambleyaya və üzv dövlətlərə təqdim edir.

60-cı və 70-ci illər ərzində İnsan hüquqları sahəsində norma yaradıcılığı ilə bağlı fəaliyyətlər gücləndikcə milli

təsisatlara dair məsələlər üzrə diskussiyalar başlıca olaraq elə yolların müəyyənləşdirilməsi üzərində cəmlənmişdi ki, bu orqanlar onların köməyi ilə nəzərdə tutulan beynəlxalq normaları səmərəli şəkildə həyata keçirilməsinə yardım edə bilsinlər. İnsan Hüquqları Komissiyası insan hüquqlarının qorunması və təşviqi ilə məşğul olan milli və yerli təsisatların strukturları və fəaliyyətlərinin rəhbər prinsiplərini işləyib hazırlamaq məqsədilə 1978-ci ildə belə təsisatlara həsr olunmuş seminar təşkil etməyi qərara aldı. Bununla əlaqədar olaraq, 1978-ci il sentyabrın 18-dən 29-na kimi Cenevrədə insan hüquqlarının qorunması və təşviqi ilə məşğul olan milli və yerli təsisatlara dair seminar keçirildi və həmin seminarda bir sıra rəhbər prinsiplər qəbul olundu. Həmin prinsiplərə əsasən milli təsisatlar aşağıdakı funksiyaları yerinə yetirməlidirlər:

a) öz ölkələrinin hökumətləri və xalqları üçün insan hüquqları barədə informasiya mənbəyi kimi fəaliyyət göstərmək;

b) ictimaiyyətin bu sahədə maariflənməsinə köməklik göstərmək və onun insan hüquqlarını dərk etməsinə və onlara hörmət etməsinə yardım göstərmək;

c) bu və ya digər ölkədə yaranan və həmin ölkə hökumətinin onlara həvalə etmək arzusunda olduğu hər hansı konkret vəziyyəti nəzərdən keçirmək, müzakirə etmək və tövsiyyələr vermək;

d) hökumətlərin insan hüquqları ilə bağlı onlara həvalə etdikləri istənilən məsələ bärədə məsləhətlər vermək;

e) insan hüquqlarının təşviqinə yönəldilən qanunvericilikləri, məhkəmə qərarlarını və inzibati sərəncamları öyrənmək və onların durumunu izləmək, həmçinin bu məsələlər barədə müvafiq orqanlara məruzələr hazırlamaq;

f) həmin dövlətin insan hüquqları sahəsində iştirakçısı olduğu beynəlxalq müqavilələr üzrə öz üzərinə götürdüyü təəhhüdlərlə əlaqədar olaraq hökumətin onlara həvalə etmək istədikləri istənilən digər funksiyaları yerinə yetirmək.

Belə təsisatların strukturları ilə bağlı rəhbər prinsiplərin nəzərdə tutduğu tövsiyyələrə görə onlar:

a) elə təşkil olunmalıdırlar ki, tərkibləri cəmiyyətin ən müxtəlif təbəqələrin əks etdirmiş olsun, bununla da əhalinin bütün təbəqələri insan hüquqları sahəsində qərarların qəbul olunması prosesinə cəlb edilsin;

b) cəmiyyətin hər bir üzvünün və hökumətin hər bir nümayəndəsinin onlara maneəsiz yol tapa bilmələrinin təmin edilməsi sahəsində müntəzəm fəaliyyət göstərməlidirlər;

c) müvafiq hallarda, öz funksiyalarını həyata keçirmək üçün onlara kömək edə bilmək məqsədilə yerli və regional məşvərət orqanlarına malik olmalıdırlar.

Bu rəhbər prinsiplər sonra İnsan Hüquqları Komissiyası və Baş Assambleya tərəfindən bəyənildi. Komissiya bütün iştirakçı dövlətlərə insan hüquqlarının qorunması və təşviqi ilə məşğul olan təsisatların mövcud olmadıqları yerlərdə belə təsisatların yaradılması üçün müvafiq addımlar atmağı təklif etdi və Baş Katibdən mövcud milli təsisatlar haqqında ətraflı məruzə təqdim etməyi xahiş etdi.

Birləşmiş Millətlər Təşkilatı 1980-cı illər ərzində də bu məsələyə fəal maraq göstərdi və Baş Assambleyaya Baş Katib tərəfindən hazırlanan çox sayda məruzələr təqdim olundu[1]. Milli təsisatların böyük əksəriyyəti məhz bu dövr-

1 A/36/440 (1981); A/38/416 (1983); E/CN. 4/1987/37 (1987); E/CN. 4/1989/47 vəAdd. 1 (1989); E/CN. 4/1991/23 və Add. 1 (1991).

də, özü də İnsan Hüquqları Mərkəzinin Konsultativ Xidmət Proqramının yardımı ilə yaradıldı.

1990-cı ildə İnsan Hüquqları Komissiyası insan hüquqlarının qorunması və təşviqi ilə məşğul olan milli və regional təsisatların iştirakı ilə müşavirə keçirməyi təklif etdi. Müşavirənin məqsədi milli təsisatların Birləşmiş Millətlər Təşkilatı və onun təsisatları kimi beynəlxalq təşkilatlarla əməkdaşlığının formalarını nəzərdən keçirməkdən və onların səmərəliliyinin daha da yüksəldilməsi yollarını öyrənməkdən ibarət idi. 1991-ci ilin oktyabrında Parisdə keçirilən bu mühüm müşavirənin nəticələri "Faktların şərhi"nin bu buraxılışına edilən əlavədə qısaca şərh edilir.

## "İNSAN HÜQUQLARI ÜZRƏ MİLLİ TƏSİSAT" NƏ DEMƏKDİR?

İndiki zamanda insan hüquqları ilə bağlı təsəvvürlər praktiki olaraq bütün dövlət sahələrini və əlbəttə ki, ictimai və şəxsi həyatın bir çox digər sahələrini əhatə edir. İnsan hüquqları məsələləri ilə məşğul olan "təsisatların" sayı və rəngarəngliyi bu gerçəkliyi əks etdirir. Kilsələrin, həmkarlar ittifaqlarının, kütləvi informasiya vasitələrinin və bir çox qeyri-hökumət təşkilatlarının fəaliyyəti də əksər dövlət idarələrinin, məhkəmələrin və qanunverici strukturların fəaliyyəti kimi bilavasitə insan hüquqları məsələləri ilə bağlıdır.

Ancaq insan hüquqları üzrə milli təsisat konsepsiyası özünün daha dərin spesifikliyi ilə onlardan fərqlənir, çünki burada söhbət elə bir orqandan gedir ki, onun funksiyaları insan hüquqlarının qorunması və təşviqi baxımından konkret müəyyənləşdirilmişdir. İki təsisatın heç vaxt tamamilə eyni olmadığına baxmayaraq, hər halda bu təsisatları yuxarıda adı çəkilən strukturlardan fərqləndirən ümumi xü-

susiyyətləri ayırd etmək olar. Bu sənəddə nəzərdən keçirilən bütün milli təsisatlar öz xarakterlərinə görə o mənada inzibati təsisatlardır ki, onlar nə məhkəmə, nə də qanunvericilik orqanlarıdırlar.

Bir qayda olaraq, bu təsisatlar milli və yaxud beynəlxalq səviyyələrdə insan hüquqlarına dair daimi konsultativ səlahiyyətlərə malikdirlər. Bu məqsədlər ya rəy və tövsiyyələr işləyib hazırlamaq yolu ilə ümumi xarakterli fəaliyyət çərçivəsində, ya da ayrı-ayrı şəxslər və ya şəxslər qrupu tərəfindən təqdim edilən şikayətlərin nəzərdən keçirilməsi və onlar barədə qərarların qəbul edilməsi əsasında həyata keçirilir. Bəzi ölkələrdə insan hüquqları üzrə milli təşkilatların yaranması Konstitusiyada nəzərdə tutulmuşdur. Adətən isə belə təsisatlar müvafiq qanun və ya dekret əsasında yaradılır. Milli təsisatların çoxu bu və ya digər şəkildə icra hakimiyyəti orqanları nəzdində yaradılsa da, onların faktiki müstəqillik səviyyəsi üzvlərinin tərkibi və fəaliyyət üsulları da daxil olmaqla bir sıra amillərlə müəyyənləşir.

Mövcud milli təsisatları iki böyük kateqoriyaya bölmək olar: "İnsan hüquqları komissiyaları" və "ombudsmenlər". Az yayıimış, amma heç də az əhəmiyyətə malik olmayan başqa bir kateqoriyanı isə "ixtisaslaşdırılmış" milli təsisatlar təşkil edir; onların vəzifəsi əhalinin ən zəif qruplarının, məsələn, etnik və dil azlıqlarının, yerli əhalinin, uşaqların, qaçqınların və ya qadınların hüquqlarını qorumaqdan ibarətdir.

## İNSAN HÜQUQLARI KOMİSSİYALARI

Bir çox ölkələrdə insan hüquqlarının qorunması ilə bağlı qanun və qaydaların səmərəli tətbiqinin təmin edilməsi üçün xüsusi komissiyalar yaradılmışdır. Bu komissiyaların əksə-riyyəti, dövlət orqanlarından asılı olmayaraq,

müstəqil fəaliyyət göstərirlər. Hərçənd onlardan müntəzəm olaraq qanunvericilik orqanları qarşısında hesabat vermək də tələb oluna bilər.

Komissiyalar müstəqil xarakter daşıdığı üçün onların tərkibinə, bir qayda olaraq, müxtəlif əhali qruplarının insan hüquqları sahəsində xüsusi marağı, biliyi və təcrübəsi olan nümayəndələri daxil olur. Hər bir ölkədə üzvlərin seçilməsi ilə əlaqədar özünəməxsus tələblər və məhdudiyyətlər, məsələn, müxtəlif peşə kateqoriyalarından, siyasi partiyalar və ərazilərdən seçilən nümayəndələr və ya namizədlər üçün kvotalar qoyula bilər.

İnsan hüquqları komissiyaları başlıca olaraq vətəndaşları ayrı-seçkilikdən qorumaqla, həmçinin insanın mülki və digər hüquqlarını qorumaqla məşğuldur. Qanunvericilik aktı və ya dekret əsasında yaradılan konkret komissiyanın funksiya və səlahiyyətləri həmin sənədlərlə də dəqiq müəyyənləşdirilir. Bu qanun və dekretlər, həmçinin komissiyaların fəaliyyət dairələrinin müəyyənləşdirilməsinə xidmət edir, belə ki, onlar komissiyaların hansı ayrı-seçkilik və zorakı xarakterli davranış növlərini tədqiq etməkdə səlahiyyətli olduqlarını müəyyənləşdirir. Komissiyaların bir qismi konstitusiyalarda qəbul olunmuş hüquqlardan hər hansı birinin güman edilən pozulma hallarını nəzərdən keçirməklə məşğuldur. Digər bir qismi isə insanın irqi, dərisinin rəngi, dini, cinsi, milli və ya etnik mənsubiyyəti, əlilliyi, sosial vəziyyəti, seksual oriyentasiyası, siyasi əqidəsi və əmlak vəziyyəti kimi son dərəcə müxtəlif əlamətlərə əsaslanan ayrı-seçkilik hallarını nəzərdən keçirmək imkanına malik ola bilərlər.

İnsan hüquqları komissiyalarının ən vacib funksiyalarından biri insan hüquqları sahəsində mövcud milli qanunların ziddinə olaraq yol verildiyi güman edilən sui-istifadə

halları barədə ayrı-ayrı şəxslərdən (bəzən qruplardan) şikayətlər almaq və onları tədqiq etməkdir. Komissiyalar öz vəzifələrini lazımi qaydada həyata keçirmək üçün, adətən, tədqiq edilən məsələ barədə dəlillər toplamaq imkanına malik olurlar. Hətta çox nadir hallarda istifadə olunsa belə, bu səlahiyyət böyük əhəmiyyət kəsb edir, çünki o, şikayətin obyekti olan şəxs və ya orqanın əməkdaşlığa səy göstərmək istəməməsi nəticəsində təhqiqatın təcrid edilməsi imkanını aradan qaldırır. Şikayətlərin təhqiqi və nizamlanması zamanı müxtəlif insan hüquqları komissiyalarının hər birinin tətbiq etdiyi prosedurların xeyli özünəməxsus olmasına baxmayaraq, onların bir çoxu barışdırma və ya arbitraj metodlarından istifadə edir. Barışdırma prosesində komissiyalar hər iki tərəf üçün məqbul sayılan nəticələrə nail olmaq məqsədilə onların arasındakı rəy müxtəlifliyini aradan qaldırmağa çalışırlar. Mübahisəni barışdırma yolu ilə nizama salmağın mümkün olmadığı hallarda komissiyalar erbitraj proseduruna müraciət edə bilərlər; bu prosedurun gedişi zamanı dinləmələrdən sonra onlar müəyyən qərar çıxarırlar.

İnsan hüquqları komissiyaları iddiada hüquqi baxımdan tərəflər üçün məcburi olan qətnamələr çıxarmaq səlahiyyətinə malik deyillər. Lakin bu heç də o demək deyildir ki, vəziyyətin nizama salınması və ya müvafiq qaydada düzəldilməsi ilə bağlı onların verdikləri tövsiyyələri inkar etmək olar. Bəzi hallarda nizama salınmamış iddianın mübahisəli məsələlərini xüsusi məhkəmə dinləyir və müəyyən qərar çıxarır. Xüsusi məhkəmələrin olmadığı hallarda komissiyalar nizamlanmamış iddiaları son və məcburi qərar çıxarılması üçün adi məhkəmələrə verir.

İnsan hüquqları komissiyalarının başqa bir vacib funksiyası insan hüquqlarına riayət olunmasında yol verilən

xətaları üzə çıxarmaq və onların aradan qaldırması üçün vasitələr təklif etmək məqsədilə hökumətin insan hüquqları sahəsindəki siyasətinin müntəzəm olaraq icmalını hazırlamaqdır. İnsan hüquqları üzrə komissiyalar, habelə həmin dövlətin insan hüquqları ilə bağlı öz qanunlarına və beynəlxalq qanunlara necə riayət etdiyini izləyir və lazım gəldikdə dəyişiklər təklif edir. Komissiyaların ümumən təsirliyinin və mümkün səmərəliliyinin mühüm amili onların öz adlarından istintaq işi qaldırma qabiliyyətləridir. Bu hal xüsusilə də ayrı-ayrı şikayətləri göndərmək üçün maliyyə və insan ehtiyatlarına malik olmayan şəxslərin və qrupların cəlb olunduqları situasiyalara tətbiq edilə bilər.

İnsan hüquqlarının həyata keçirilməsinə yalnız qanuni və inzibati xarakterli tədbirlər sayəsində nail oluna bilər. Bunu o fakt da təsdiq edir ki, ictimaiyyət tərəfindən insan hüquqlarının dərk edilməsinin dərinləşdirilməsinə görə məsuliyyət adətən bu komissiyalara həvalə edilir. İnsan hüquqları sahəsində populyarlaşdırıcı və maarifləndirici fəaliyyət komissiyyaların öz funksiyaları və məqsədləri barədə ictimaiyyəti məlumatlandırmanı; insan hüquqları ilə bağlı müxtəlif məsələlər üzrə diskussiyaların təşkilini; seminarların təşkilini, konsultativ xidmətlər göstərilməsini və konsultativ müşavirələr keçirilməsini, həmçinin insan hüquqlarına aid nəşrlərin hazırlanması və yayılmasını əhatə edir.

## OMBUDSMEN

Hazırda bir sıra ölkələrdə ombudsmen institutu mövcuddur. Ombudsmen (o, ayrıca bir şəxs və ya şəxslər qrupu ola bilər) bir qayda olaraq öz konstitusiya səlahiyyətlərinə uyğun olaraq və ya xüsusi qanun əsasında parlament tərəfindən təyin olunur. Bu institutun əsas funksiyası özlə-

rini dövlət idarələrinin ədalətsiz hərəkətlərinin qurbanları sayan ayrı-ayrı şəxslərin hüquqlarını qorumaqdan ibarətdir. Buna müvafiq olaraq ombudsmen çox zaman zərərçəkən şəxslə hökumət arasında tərəfsiz vasitəçi kimi fəaliyyət göstərir.

Tamamilə eyni ombudsmen institutuna malik olan iki ölkə tapmaq olduqca çətin məsələdir, amma buna baxmayaraq onların hamısı öz fəaliyyətlərini həyata keçirərkən analoji proseduralardan istifadə edirlər. Ombudsmen ictimaiyyət nümayəndələrindən şikayətləri qəbul edir və onları, öz ixtisas sahələrinə aid olduqları halda tədqiq edir. Təhqiqat prosesində ombudsmenə, bir qayda olaraq, bütün müvafiq dövlət orqanlarındakı sənədləri əldə etmək imkanı verilir. Sonra o, bu təhqiqatın nəticələri əsasında tövsiyyələr mətninin işləyib hazırlayır. Həmin mətn şikayət edən şəxsə və bu şikayətin əleyhinə yönəldildiyi müəssisəyə və ya orqana verilir. Ümumən götürüldükdə, ombudsmen tövsiyyələri üzrə heç bir tədbir görülmədiyi hallarda o, qanunverici orqana konkret məruzə təqdim edə bilər. Bu, üzə çıxarılan problemlər barədə informasiyaları, qanuni və inzibati xarakterli dəyişikliklər edilməsi barədə təklifləri özündə əks etdirən və həmin orqana göndərilən illik məruzələrə əlavə edilir.

Öz hüquqlarını pozulmuş hesab edən hər bir vətəndaş ombudsmenə şikayət göndərə bilsə də, bir çox ölkələrdə elə qaydalar mövcuddur ki, o qaydalara əsasən iddiaçı ilk növbədə hüquqların qorunmasının bütün alternativ vasitələrinə baş vurduqdan sonra ombudsmenə müraciət edə bilər. Ombudsmenlərin səlahiyyətləri dövlət idarəçiliyinin bütün aspektlərini əhatə etsə də, şikayətlərin ona göndərilməsinə müvəqqəti məhdudiyyətlər də mövcud ola bilər; onların bəzilərinin prezidentlərə, nazirlərə və məhkəmə

orqanlarına aid olan şikayətləri nəzərdən keçirmək səlahiyyətləri yoxdur.

Hər bir ölkə üçün, həmçinin ombudsmenə yol tapmağın öz vasitələri xarakterikdir. Bir çox ölkələrdə ayrı-ayrı şəxslər bilavasitə ombudsmen bürosuna şikayət edə bilərlər. Digər ölkələrdə şikayətlər vasitəçilər, məsələn parlament üzvü vasitəsi ilə təqdim oluna bilər... Ombudsmenə verilən şikayətlər, bir qayda olaraq, məxfi xarakter daşıyır və iddiaçının şəxsiyyəti onun öz razılığı olmadan açıqlanmır.

Ombudsmenin fəaliyyəti heç də həmişə şikayətlər üzrə tədbirlər qəbul edilməsi ilə nəticələnmir. O, öz təşəbbüsü ilə təhqiqata başlaya bilər. Ombudsmenin öz təşəbbüsü ilə başladığı təhqiqatlar əsasən o məsələlərə aid olur ki, onlar, onun fikrincə, ictimaiyyətin geniş təbəqələrinin mənafeyinə və ya qrupların hüquqlarına toxunur, buna görə də fərdi şikayət obyekti ola bilməz.

Bir çox münasibətlərdə ombudsmenin səlahiyyətləri insan hüquqları komissiyalarının səlahiyyətləri ilə tamamilə eynidir. Həm o, həm də komissiyalar ayrı-ayrı şəxslərdən şikayətlər qəbul edə və onları təhqiq edə bilərlər. Prinsipcə, onların heç birinin yerinə yetirilməsi məcburi olan qərarlar çıxarmaq səlahiyyəti yoxdur. Ancaq hər iki orqanın funksiyalarında müəyyən fərqlər mövcuddur, bəzi ölkələrin hər iki institutu eyni vaxtda yaratması və onların eyni vaxtda mövcudluğunu təmin etməsi faktı da bununla izah olunur.

Əksər hallarda ombudsmenin başlıca funksiyası dövlət idarələrində ədaləti və qanunçuluğu təmin etməkdən ibarətdir. İnsan hüquqları komissiyaları daha çox ayrı-seçkilik məsələləri ilə məşğul olur və bu münasibətlə tez-tez özəl orqanların və ayrı-ayrı şəxslərin, həmçinin hökumətin

fəaliyyətini nəzərdən keçirir. Bütövlükdə, ombudsmenin fəaliyyətinin əsas istiqaməti fərdi şikayətləri müzakirə etməkdir. Lakin ombusdsmenlər getdikcə daha tez-tez insan hüquqlarının qorunması və təşviqi üzrə daha geniş fəaliyyət dairəsinə cəlb olunurlar.

## İXTİSASLAŞDIRILMIŞ TƏSİSATLAR

Hər bir ölkədə onun üçün xarakterik olan zəif əhali təbəqələri və azlıq qrupları mövcuddur, lakin onların hamısı üçün ən ümumi şey ayrı-seçkilik problemidir. Hökumətləri tərəfindən mənafelərinin qorunması üçün insan hüquqları sahəsində ixtisaslaşdırılmış təsisatlara daha çox ehtiyacı olan şəxslər kimi tanınan cəmiyyət üzvləri etnik azlıqlar, dilinə və dininə görə azlıqlar, yerli əhali, xaricilər, köçkünlər, mühacirlər, qaçqınlar, uşaqlar, qadınlar, habelə yoxsullar və əlillərdir.

Ümumən götürdükdə, belə ixtisaslaşdırılmış təsisatlar həmin konkret qrupun hüquqlarının qorunması üçün işlənib hazırlanmış dövlət siyasətinin və sosial siyasətin inkişafına yardım göstərmək üçün yaradılır. Onların böyük bir qismi, insan hüquqları komissiyaları və ombudsmenlərin yuxarıda təsvir olunan, nisbətən daha az dəqiq müəyyənləşdirilmiş funksiyalarına oxşar funksiyaları yerinə yetirirlər. Bu təsisatlar bir qayda olaraq, həmin qrupdan olan ayrı-ayrı şəxslərə və ya bütövlükdə həmin qrupa qarşı yol verilən ayrı-seçkilik halları və formalarını təhqiq etmək səlahiyyətlərinə malik olurlar. Bütövlükdə isə, qrupun hər hansı bir üzvünün onun digər bir üzvü və ya dövlət orqanının hərəkəti ilə bağlı verdiyi şikayəti təhqiq etmək imkanına malik olsa da, bu ixtisaslaşdırılmış təsisatlar, insan hüquqları ilə məşğul olan digər milli təsisatlar kimi, yerinə yetirilməsi məcburi olan qərarlar çıxarmaq və ya məhkəmə id-

diası qaldırmaq səlahiyyətlərinə heç də həmişə malik deyillər.

Fərdi və kollektiv əsasda maddi və konsultativ yardım göstərməklə yanaşı belə təsisatlar, adətən mövcud qanunlar və konstitusiya qaydalarının səmərəliliyinə nəzarət məsələlərinə, həmin qanun və qaydaların konkret qruplara aid olduqları dərəcədə məsuliyyət daşıyır. Beləliklə, onlar çox zaman parlamentin və icra hakimiyyəti orqanlarının məsləhətçisi və ya müşaviri kimi fəaliyyət göstərirlər.

## BƏZİ SON QEYDLƏR

İnsan hüquqlarının qorunması və təşviqinə həsr olunmuş xüsusi milli mexanizmin yaradılmasının əsaslarının ciddiliyi heç də hamı üçün aydın deyildir. Bəlkə də onlar belə hesab edirlər ki, bu orqanların fəaliyyətinə rəvac verilməsi onsuz da az olan ehtiyatları ağılsızcasına israf etmək deməkdir və müstəqil məhkəmə orqanlarının, demokratik yolla seçilən parlamentin mövcud olması hər şeydən əvvəl, insan hüquqları sahəsində sui-istifadələrə imkan verilməməsi üçün kifayətdir.

Təəssüf ki, tarix bizə başqa şeyi öyrədir. İcra hakimiyyəti və məhkəmə sistemi üçün xarakterik məsuliyyətdən müəyyən mənada azad olan orqan insan hüquqları sahəsində ən aparıcı yeri tuta bilər. Fəaliyyətdə olan hökumətlə öz arasında real və güman edilən məsafəni saxlamaqla, belə orqan, bu və ya digər ölkənin öz vətəndaşlarını qoruması və cəmiyyətdə insan hüquqlarına və əsas azadlıqlara hörmət ruhunda mədəniyyətin formalaşması sahəsində göstərdiyi səyləri unikal dərəcədə zənginləşdirə bilər.

Bəzi ölkələrdə hələ lap əvvəllərdən insan hüquqları komissiyaları və ombudsmen büroları kimi orqanların yaradılması yolu ilə milli səviyyədə insan hüquqlarını qorumaq

ənənəsi formalaşmışdır. Lakin, belə təsisatların əksəriyyəti 80-cı illərdə yaranmışdır. Birləşmiş Millətlər Təşkilatı tərəfindən fəal təşviq olunan bu meyl həm milli, həm də beynəlxalq səviyyədə insan hüquqlarının himayə edilməsi uğrunda hərəkatın artdığına dəlalət edir. İnsan hüquqları üzrə milli təsisatlara artan marağı, həmçinin son vaxtlar dünyanın bir çox ölkələrində baş verən demokratikləşmə və islahatlar prosesləri fonunda da nəzərdən keçirmək lazımdır.

Birləşmiş Millətlər Təşkilatı milli tə sisatların işində iştirak edərək bu qənaətə gəlmişdir ki, insan hüquqları sahəsində öz təəhüdlərini yerinə yetirə bilmələri üçün bütün ölkələrə lazımi mexanizm kimi milli təsisatların vahid modelini tövsiyyə etməyə lüzum yoxdur və bu faydalı deyildir. Hər bir millət digərinin təcrübəsindən istifadə edə bilsə də, milli təsisatlar yerli mədəni və hüquqi ən ənələr, həmçinin mövcud siyasi strukturlar nəzərə alınmaqla yaradılmalıdır.

Birləşmiş Millətlər Təşkilatı, habelə o faktı da qəbul etmişdir ki, milli təsisatlar yaratmağa və onları möhkəmləndirməyə can atan dövlətlərin heç də hamısı bunun üçün lazım olan texniki və maliyyə imkanlarına malik deyillər.

İnsan hüquqları Mərkəzi özünün konsultativ xidmət və texniki əməkdaşlıq proqamı çərçivəsində son bir neçə il ərzində bir sıra ölkələrə bu sahədə ekspert xidmətləri və maddi yardım göstərmişdir. O, insan hüquqları üzrə milli təsisatların yaradılması və möhkəmləndirilməsinə yardım göstərilməsi barədə üzv dövlətlərin müraciət edə bilmələri üçün lazımi tədbirlər görür. Bu məqsədlə praktik yardım İnsan Hüquqları Mərkəzinin konsultativ xidmət proqramı çərçivəsində göstərilə bilər.

Ona ümid etmək lazım deyildir ki, "Faktların şərhi"nin bu buraxılışında təsvir olunan mexanizm dövlətlərin və

beynəlxalq birliyin səmərəli şəkildə həll edə bilmədiyi problemləri həll edəcəkdir. Bu mexanizm heç də Birləşmiş Millətlər Təşkilatının insan hüquqları üzrə orqanlarını və yaxud bu sahədə fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarını əvəz etmək üçün yaradılmır. Ona əlavə edici, tamamlayıcı rol verilir və bu cür təsisatların möhkəmləndirilməsi həm milli, həm də beynəlxalq səviyyədə insan hüquqlarının möhkəmləndirilməsi, insan hüquqlarının qorunması və təşviqi sistemlərinin səmərəliliyini yalnız yüksəldə bilər.

## ƏLAVƏ

İnsan hüquqlarının qorunması və təşviqi ilə məşğul olan milli təsisatların statusu və funksiyalarına dair prinsiplər

Qeyd: 1991-ci ilin oktyabrında İnsan hüquqları Mərkəzi insan hüquqları üzrə mövcud milli təsisatlar barədə informasiyaların nəzərdən keçirilməsi və yeniləşdirilməsi ilə bağlı beynəlxalq müşavirə keçirmişdir. İştirakçıların tərkibinə milli təsisatların, dövlətlərin, Birləşmiş Millətlər Təşkilatının, onun ixtisaslaşdırılmış təsisatlarının, hökumətlərarası və qeyri-hökumət təşkilatlarının nümayəndələri daxil idi.

Mövcud mexanizmlər barədə fikir mübadiləsi etməklə yanaşı, müşavirə iştirakçıları insan hüquqları üzrə milli orqanların rolu, tərkibi, statusu və funksiyaları haqqında kompleks tövsiyyələr seriyası işləyib hazırladı. 1992-ci ilin martında İnsan hüquqları Komissiyası tərəfindən bəyənilən bu tövsiyyələr aşağıda qısa şəkildə təfsir edilir:

**A. Milli təsisatların səlahiyyətlərivə funksiyaları**

1. Milli təsisata insan hüquqlarının qorunması və təşviqi ilə bağlı səlahiyyətlər verilir.

2. Milli təsisat mümkün qədər daha geniş məsələlər dairəsini əhatə edən və tərkib və fəaliyyəd dairəsi konstitusiyada və ya qanunvericilikdə dürüst müəyyənləşdirilən mandata malikdir.

3. Millı təsisatlar əsasən aşağıdakı funksiyaları yerinə yetirir:

a) Konsultativ qaydada hökumətə, parlamentə və ya digər istənilən səlahiyyətli orqana, ya bu işdə marağı olan səlahiyyətli orqanların xahişi ilə, ya da özünün materialları müstəqil müzakirə etmək hüququndan istifadə edərək, insan hüquqlarının qorunması və təşviqi ilə bağlı istənilən məsələyə dair rəylər, tövsiyyələr, təkliflər və məruzələr təqdim etmək; Milli təsisat onların nəşri barədə qərar qəbul edə bilər. Milli təsisatın rəy, tövsiyyə, təklif və məruzələr təqim etmək hüququ, habelə digər istənilən hüquqları aşağıdakı sahələrə aiddir:

1) istənilən qanun və inzibati qaydalar, habelə insan hüquqlarına riayət olunmasına və onların qorunmasının səmərəliliyinin artırlmasına yönəldilən qaydalar; bununla əlaqədar olaraq milli təsisat mövcud qanunları və fəaliyyətdə olan inzibati qaydaları, həmçinin qanun layihələrini və qanunların qəbul edilməsi barədə təklifləri öyrənir və bu qaydaların insan hüquqlarına dair əsas prinsiplərə uyğunlaşdırılmasını təmin etmək məqsədi ilə məqsədəuyğun hesab etdiyi tövsiyyələri verir. Zəruri hallarda o, yeni qanunların qəbul edilməsi, fəaliyyətdə olan qanunların təkmilləşdirilməsi və inzibati tədbirlərin qəbul edilməsi və ya dəyişdirilməsi barədə tövsiyyələr verir.

2) müzakirə edilməsini zəruri hesab etdiyi insan hüququnun istənilən pozulması halı;

3) ümumiyyətlə, insan hüquqları, həmçinin daha konkret məsələlər baxımından ölkədəki vəziyyət barədə məruzələrin hazırlanması;

4) hökumətin diqqətini istənilən ölkədə baş verən insan hüquqlarının pozulması hallarına cəlb etmək, belə pozuntulara son qoyulmasına yönəldilən istənilən tədbirlər barədə hökumətə təkliflər təqdim etmək və zəruri hallarda hökumətin mövqeyi və görülən tədbirlər barədə öz təsəvvürlərini ifadə etmək.

b) Milli qanunvericiliklərin, qaydaların və praktikanın, həmin dövlətin iştirakçısı olduğu insan hüquqlarına dair beynəlxalq sənədlərə uyğunlaşdmlmasını və onların həyata keçirilməsini təşviq etmək və bu işə nəzarət etmək;

c) Yuxarıda adı çəkilən beynəlxalq sənədlərin təsdiq edilməsinə və yaxud dövlətin həmin sənədlərə qoşulmasına yardım göstərmək və onların necə həyata keçirildiyini izləmək;

d) Dövlətin beynəlxalq konvensiyalara dair öz təəhhüdlərini həyata keçirməsi ilə bağlı Birləşmiş Millətlər Təşkilatının orqanlarına və komitələrinə, habelə regional təsisatlarına təqdim etməli olduğu məruzələrin hazırlanmasına yardım göstərmək, müstəqillik prinsipinə uyğun olaraq bu məsələ barədə öz rəyini ifadə etmək;

e) Birləşmiş Millətlər Təşkilatı və BMT sisteminin digər istənilən tə sisatları ilə insan hüquqlarının qorunması və təşviqi sahəsində səlahiyyətləri olan regional təsisatlar və digər ölkələrin milli təsisatları ilə əməkdaşlıq etmək;

f) İnsan hüquqları məsələləri ilə bağlı tədqiqatlara və onların tədrisinə dair proqramların işlənib hazırlanmasında və bu proqramların məktəblərdə, universitetlərdə və peşəkar dairələrdə həyata keçirilməsində iştirak etmək

g) İnsan hüquqları və ayrı-seçkiliyin, xüsusilə də irqi ayrı-seçkiliyin bütün formalarına qarşı mübarizə haqqında informasiyalar yaymaq, əsasən məlumatlandırma və maarifçilik fəaliyyəti vasitəsi ilə bütün kütləvi informasiya vasitələrindən istifadə edərək ictimaiyyətin diqqətini bu məsələlərə cəlb etmək.

**B. Milli təsisatların tərkibi, müstəqilliyi və plüralizminin təminatı.**

1. Milli təsisatların tərkibi, onun seçilən və ya təyin edilən üzvlərinin irəli sürülmək qaydaları insan hüquqlarının qorunması və təşviqi ilə əlaqəsi olan sosial qüvvələrin (mülki cəmiyyətin) plüralist təmsilçiliyini nəzərdə tutan prosedura uyğun olmalıdır. Buna, əsasən, aşağıdakı təşkilatların təmsilçilərilə səmərəli əməkdaşlığa imkan verən səlahiyyətlərdən istifadə etmək yolu ilə, ya da həmin təmsilçilərin onların fəaliyyətində iştirak etməsi vasitəsi ilə nail olmaq mümkündür:

- insan hüquqları və irqi ayrı-seçkiliyə qarşı mübarizə sahəsində səlahiyyətləri olan qeyri-hökumət təşkilatlarının, həmkarlar təşkilatlarının, bunda marağı olan ictimai təşkilatların və peşə təşkilatlarının, xüsusilə də hüquqçuların, səhiyyə işçilərinin, jurnalistlərin, elm xadimlərinin müvafiq təşkilatlarının;
- müxtəlif fəlsəfi və dini təriqətlərin;
- universitetlərin və təcrübəli ekspertlərin;
- parlamentin;
- inzibati orqanların (bu halda onların təmsilçiləri məsələlərin müzakirəsində yalnız məsləhətçi kimi iştirak edirlər);

2. Milli təsisat öz fəaliyyətini lazımi şəkildə həyata keçirə bilmək üçün infrastrukturaya, o cümlədən kifayət qədər vəsaitə malikdir. Bu vəsaitlər, əsasən, onun dövlətdən

qeyri-asılılığını təmin etmək üçün xidmət personalına muzd verilməsi və binaların icarəyə götürülməsinə sərf olunmalıdır; bu zaman bu təsisatm müstəqilliyinə hörmət edilməsi şərti ilə ona yalnız maliyyə nəzarəti nəzərdə tutulur.

3. Belə təsisatın əməkdaşlarına verilən mandatın təminatı üçün, - bunsuz o, həqiqətən müstəqil ola bilməz, - həmin əməkdaşların təyin olunması bu mandatın müddəti, işlək dövrünün əvvəli və sonu dəqiq göstərilməklə rəsmi sənədə əsasən həyata keçirilir. Həmin mandat, onun tərkibinin plüralist xarakter daşıdığı təmin olunduğu halda yeniləşdirilə bilər.

## C. Milli təsisatların fəaliyyətinin istiqamətləri

Milli təsisat öz fəaliyyəti çərçivəsində aşağıdakı vəzifələri yerinə yetirməlidir:

1. səlahiyyətlərinə aid olan və istər hökumət tərəfindən təqdim edilən, istərsə də öz üzvlərinin təşəbbüsü və ya ərizə ilə müraciət edən hər hansı şəxsin təklifi ilə müzakirə edilən istənilən məsələni özü bildiyi şəküdə öyrənmək;

2. səlahiyyətlərinə aid olan situasiyaları qiymətləndirmək üçün istənilən şəxsi dinləmək və bu iş üçün zəruri olan istənilən informasiyanı və istənilən sənədi tələb etmək;

3. xüsusilə də öz dəyərləndirmələri və tövsiyyələri barədə məlumat vermək üçün ya birbaşa, ya da kütləvi informasiya vasitələri ilə ictimaiyyətə müraciət etmək;

4. müntəzəm əsasda və zəruri hallarda iclaslar keçirmək; həmin iclaslarda onun müntəzəm çağırılan bütün üzvləri iştirak etməlidir.

5. öz çərçivəsi daxilində və zəruri hallarda işçi qrupları yaratmaq və onlara həvalə edilən funksiyaların həyata ke-

çirilməsinə yardım göstərmək üçün yerli və regional şöbələr təsis etmək;

6. öz fəadiyyətini məhkəmə orqanları və insan hüquqlarının qorunması və təşviqi ilə məşğul olan qeyri-məhkəmə orqanarı ilə (əsasən, ombudsmenlər, arbitrajlar və digər analoji orqanlarla) əlaqələndirmək;

7. milli təsisatların fəaliyyətini tamamlayan qeyri-hökumət təşkilatlarının mühüm rolunu nəzərə alaraq, insan hüquqlarının qorunması və təşviqi, sosial və iqtisadi inkişaf, irqçiliyə qarşı mübarizə, xüsusilə zəif qrupların (əsasən, uşaqların, əməkçi köçkünlərin, qaçqınların, fiziki və əqli cəhətdən qüsurlu şəxslərin) qorunması ilə və digər xüsusi məsələlərlə məşğul olan qeyri-hökumət təşkilatlarıyla əlaqələri inkişaf etdirmək.

## D. Qeyri-həqiqi məhkəmə səlahiyyətlərinə malik olan komissiyaların statusuna dair əlavə prinsiplər

Milli təsisata ayrı-ayrı situasiyalarla bağlı ərizə və şikayətləri qəbul etmək və onları müzakirə etmək hüququ verilə bilər. O, ayrı-ayrı şəxslər, onların nümayəndələri, üçüncü tərəflər, qeyri-hökumət təşkilatları, cərhiyyətlər, həmkarlar ittifaqları və digər istənilən nüfuzlu təşkilat tərəfindən göndərilən materialları müzakirə edə bilər. Bu halda komissiyaların digər səlahiyyətlərinə dair yuxarıda adı çəkilən prinsiplərə xələl gətirmədən, onlara həvalə edilən funksiyalar aşağıdakı prinsiplərə əsaslana bilər:

1. mübahisənin barışdırma proseduru vasitəsilə və ya qanunların tələb etdiyi çərçivədə məcburi icra üçün qərar qəbul etmək yolu ilə, yaxud da, zəruri hallarda məxfilik əsasınlda dostcasına nizamlanmasma can atmaq;

2. ərizə müəllifini öz hüquqları, əsasən də onun ixtiyarında olan hüquqi mühafizə vasitələri barədə məlumatlan-

dırmaq və onun bu vasitələrə yol tapa bilməsini asanlaşdırmaq;

3. şikayət və ərizələri nəzərdən keçirmək və onları qanunla müəyyənləşdirilmiş çərçivələrdə səlahiyyətlərə malik olan istənilən digər orqana göndərmək;

4. xüsusilə də ərizə verən şəxslərin üzləşdikləri çətinliklərə səbəb olan qanunların, inzibati qaydaların və təcrübənin dəyişdirilməsi və ya islah oulnması barədə təkliflər irəli sürməklə səlahiyyətli orqanlara tövsiyyələr vermək.

**Sorguları bu ünvanlara göndərin:**

**Centre for Human Rights**

**United Nations Office at Geneva**

**8-14 avenue de la Paix**

**1211 Geneva 10, Switzerland**

**New York Office**
**Centre for Human Rights**
**United Nations**
**New York, N.Y. 10017,**
**United States of America**

This brochure is the translation of the materials publishing by Human Rights Center of United Nations Organization Department at Geneva.

This brochure dedicated to the international and national (local), organizations which make activity on the sphere of Human Rights. There are materials about the UN and national organs and organizations, if ‘s activities.

There are about informations about the activity of UN commissions and Ombudsmen.

Məcmuə Birləşmiş Millətlər Təşkilatının Cenevrədəki Şöbəsinin İnsan Hüquqları Mərkəzinin nəşr etdiyi materialların tərcüməsidir.